# Bir gündə 650 min ağacın əkilməsi ətraf mühitin qorunması üçün faydalı olacaq

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın irəli sürdüyü bütün təşəbbüslər millətin rifahına, dövlətin və dövlətçiliyin möhkəmlənməsinə istiqamətlənib. Onun təşəbbüsü ilə İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə 650 min ağacın əkilməsi ideyası dahi şairin xatirəsinə ehtiramla yanaşı, ətraf mühitin qorunması baxımından böyük əhəmiyyət daşıyır.

Bunu Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsil fakültəsinin dekanı, pedaqoji elmlər doktoru, professor, Əməkdar elm xadimi Fərrux Rüstəmov AZƏRTAC-a söyləyib.

Qeyd olunub ki, bu humanitar təşəbbüs dünya xalqlarının diqqətini Azərbaycana, mütəfəkkir şair Nəsimi irsinə cəlb etməklə, Azərbaycan mədəniyyətini, mənəviyyatını və dəyərlərini təbliğ edir. Eyni zamanda, ekoloji mühitin sağlamlaşdırılmasına böyük töhfədir. Həm Bakı şəhərində, həm də regionlarda bu təşəbbüs ciddi dəstək qazanıb. ADPU-nun təmsilçisi kimi deyə bilərəm ki, universitetimizin professor-müəllim heyəti və tələbə kollektivi də bu tədbirdə fəal iştirak etməklə öz vətəndaşlıq borcunu yerinə yetirəcək.

* * *

Ağac əkmək, ana torpağın sinəsinə şitil basdırmaq, onu böyüdüb boya-başa çatdırmaq həmişə ən savab işlərdən biri sayılıb. Təsadüfi deyildir ki, İslam peyğəmbərinin kəlamlarının birində də bu işə çox böyük dəyər verilib: "Qiyamət gününə bir gün qalsa da, ağac ək".

Ağac əkmək bir növ canlı yaratmağa bənzəyir. Dünyaya gələn körpənin ana qayğısına, valideyn nəvazişinə ehtiyacı olduğu kimi, torpağa basdırılan hər fidanın da bağban qayğısına ehtiyacı var. Ona görə də yerə ting basdırmaqla iş bitmir, gərək həm də onun qayğısını çəkib, böyüdəsən.

Bu barədə AZƏRTAC-a K.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun direktoru, Səhiyyə Nazirliyinin baş pediatrı, professor Nəsib Quliyev Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın mütəfəkkir şair İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə bir gündə respublikamızda 650 min ağac əkmək təşəbbüsünə münasibət bildirərkən deyib.

Həmin təşəbbüsün rəğbətlə qarşılandığını ifadə edən həkim-pediatr daha sonra əlavə edib: "Ağaclar bizi əhatə edən mühiti oksigenlə təchiz edir. Fotosintez zamanı yeni açılan yaşıl yarpaqlar karbon qazını udub oksigeni havaya buraxır. Bu isə ətraf mühitin sağlamlaşmasına, nəfəs aldığımız havanın oksigenlə zənginləşməsinə çox böyük töhfədir. Hesab edirəm ki, bu nəcib təşəbbüsün həyata keçirilməsi cəmiyyətin, gələcək nəslin, o cümlədən uşaqların sağlamlığında çox böyük rol oynayacaq. Ona görə də heç kəs bu təşəbbüsdən kənarda qalmamalı, hər kəs bir neçə ağac əkərək ekologiyanın, ətraf mühitin sağlamlaşması işində yaxından iştirak etməlidir".

**Azərbaycan.- 2019.- 22 oktyabr.- S. 5.**